

# TÜLKÜ VƏ HACILEYLƏK

Tülkü və Hacıleylək dost olmuşdular. Onlar bir yerdə ova çıxır, bir gəzirdilər. Bir gün tülkü Hacıleyləyə dedi:

- Qardaş, axşam bizə qonaq gələrsən.

Hacıleylək axşam Tülkünün evinə gəldi. Tülkü bir qazan dovğa bişirdi. Dovğanı bir siniyə töküb



süfrəyə gətirdi. Yeməyə başladılar. Hacıleylək hər dəfə dimdiyini uzadanda ancaq bircə düyü götürə bilirdi. O beş-altı düyü götürməmişdi ki, Tülkü dovğanı tamam yalayıb qurtardı. Hacıleylək ac qaldı və öz-özünə dedi: "Yaxşı, Tülkü, əvəzini çıxaram".



Hacıleylək acından səhərədək yata bilmədi.

Bu əhvalatın üstündən bir neçə gün keçdi. Bir gün Hacıleylək südlü aş bişirib Tülkünü qonaq çağırdı. Hacıleylək aşı bir bardağa töküb süfrəyə qoydü. Tülkü ancaq bardağın ağzına bulaşmış düyüləri



yeyə bildi. Hacıleylək isə uzun dimdiyini bardağın içinə salıb aşın hamısını yedi.

Tülkü acıqlanıb evinə qayıtdı. Yolda öz-özünə dedi: "Hacıleyləkdən mənə dost olmaz. Mən gərək onu yeyəm".

Günlər ötüb keçirdi. Tülkü bir bəhanə axtarırdı ki, Hacıleyləyi tutub yesin. Bir səhər tezdən Tülkü Hacıleyləyin yanına gəlib dedi:





- Qardaş, ürəyim yaman darıxır, dur gedək, göy çəməndə bir az gəzişək.

Hacıleylək razı oldu. Onlar gedib bir çəmənə çatdılar.

Tülkü dedi:

- Nə gözəl çəməndir! Gəl burada bir az uzanaq.

Hacıleylək ilə Tülkü göy çəməndə uzandılar. Tülkü özünü yalandan yuxuluğa vurdu. O istəyirdi ki, Hacıleylək yuxuya gedən kimi boğazından tutub boğsun.



Hacıleylək təzəcə yuxuya getmişdi. Tülkü birdən qalxıb Hacıleyləyin boğazından yapışdı. Hacıleylək oyanıb soruşdu:



- Bacı, nə eləyirsən?

Tülkü dedi:

- Yuxuda səni gördüm, ona görə səni qucaqlamaq istədim.

Hacıleylək onun hiyləsini başa düşüb dedi:

- Bacıcan, daha yatmıram, gəl mənim belimə min, havaya qalxaq, bir az uçaq, sonra gəlib arxayın yatarıq.

Tülkü Hacıleyləyin belinə mindi. Hacıleylək havaya qalxdı. Xeyli uçandan sonra soruşdu:

- Bacıcan, yer necə görünür?

Tülkü dedi:

- Xırman kimi.





Bir az da qalxdıqdan sonra Hacıleylək soruşdu:

- Bacı, indi necə görünür?

Tülkü dedi:

- İndi heç görünmür.

Hacıleylək dedi:

- Bacı, daha qanadlarım ağrıyır, düş bir az dincəlim.

Tülkü yalvarıb dedi:





- Ay qardaş, mən nə təhər düşüm, hara düşüm? Amanın günüdür, məni aşağı endir.

Hacıleylək dedi:

- Qanadlarım ağrıyır, düşməsən, səni özüm yerə ataram.

Tülkü çox yalvarıb-yaxardı, gözlərinin yaşını tökdü, amma Hacıleyləyin ürəyi yumşalmadı.

- Sən dostluqda vəfasız çıxdın, cəzandır, çək, - deyib, Tülkünü yerə tulladı.

**Kitab Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurasının 2001-ci il 15 oktyabr tarixli 9 saylı qərarı ilə sinifdənxaric oxu vəsaiti kimi təsdiq edilmişdir.**

*İbtidai sinif şagirdləri üçün*


Direktor: O. H. Hüseynov
Redaktor: F. Şirinova
Rəssam: S. Vlasova
Bədii redaktor: R. Məmmədova
Dizayner: A. Sadıqov

Yığılmağa verilmiş: 26.09.2001. Çapa imzalanmış: 23.10.2001.
Kağız formatı 60x84 $^1/_{16}$. Ofset çapı. Fiziki ç.v. 0,5.
Şərti ç.v. 0,46. Rəngli şərti ç.v. 2,8.
Tirajı 3000. Sifariş 33. Qiyməti müqavilə ilə.
Kitab "Turan" nəşrlər evində hazırlanıb çap edilmişdir.
Bakı, Şərifzadə küç. 3
Lisenziya N:022066
Kitabın topdan satışı ilə bağlı aşağıdakı telefonlara müraciət edə bilərsiniz: 32-11-48 /39-89-79/

$T\frac{4803000000}{113\text{-}2001}$

"Turan" nəşrlər evi, Bakı - 2001